# SOCAR ilə Almaniyanın SEFE şirkəti arasında təbii qaz alışı üzrə müqavilə imzalanıb

SOCAR ilə Almaniyanın SEFE (Securing Energy for Europe) dövlət enerji şirkəti arasında təbii qaz alışı üzrə 10 illik müqavilə imzalanıb.

Şirkətdən AZƏRTAC-a bildirilib ki, sənədə əsasən, qaz həcmləri SOCAR tərəfindən Avropada SEFE-yə təchiz ediləcək. İllik tədarük həcmi mərhələli şəkildə artırılaraq 15 TWh-a (terevatt-saat), yəni, təxminən 1,5 milyard kubmetrə (bcm) çatdırılacaq.

Bu əməkdaşlıq hasilat və infrastruktur, o cümlədən qaz kompressorları sahəsində investisiyaları dəstəkləməklə, Avropaya daha çox boru xətti qazının çatdırılmasını təmin edəcək və qitənin enerji təhlükəsizliyinə töhfə verəcək.

SEFE-nin baş icraçı direktoru Egbert Laege deyib: "Bu uzunmüddətli müqavilə Almaniya ilə Azərbaycan arasında mövcud olan güclü münasibətlərin bariz nümunəsidir. Bu tərəfdaşlıq sayəsində Avropaya əhəmiyyətli həcmdə təbii qaz çatdırmaq üçün yeni bir marşrut formalaşdırılır, bu isə bizim portfelimizi şaxələndirməyə və müştərilərimizin enerji təchizatının təhlükəsizliyini artırmağa xidmət edir".

SOCAR-ın prezidenti Rövşən Nəcəf bildirib: "Bu razılaşma SOCAR-ın Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətindəki fəaliyyətində növbəti önəmli mərhələdir. Biz SEFE-yə etibarlı və iri həcmdə təbii qaz təchiz etməklə Azərbaycan ilə Almaniya arasında mövcud tərəfdaşlığı daha da möhkəmləndirir, Avropanın enerji şaxələndirməsinə və dayanıqlı inkişaf hədəflərinə töhfə veririk. SOCAR bundan sonra da infrastruktur və hasilat üzrə layihələrə sərmayə qoyaraq tərəfdaşlarımız üçün təhlükəsiz və fasiləsiz enerji təchizatının təmin olunmasını davam etdirəcək".

Azərbaycan.- 2025.- 11 iyun (№ 118).- S.7.